**"Təsdiq edirəm"**

Azərbaycan Respublikasının
Vergilər Nazirliyi

**Nazir** ________________ **F. Məmmədov**

"01" fevral ________ 2012 -ci il

*Vergi və rüsumların müasir ödəniş mexanizmlərindən istifadə edilərək elektron formada ödənilməsi*

**üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı: "***Vergi və rüsumların internet vasitəsi ilə ödənilməsi"*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu xidmət vergi ödəyiciləri tərəfindən vergi və rüsumların müasir ödəniş mexanizmlərindən istifadə edilərək elektron formada ödənilməsini əhatə edir*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *«Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 358 nömrəli Fərmanı*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyi*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** ***Tam***
*Xidmətin göstərilməsi prosesi tamamilə informasiya sistemləri tərəfindən həyata keçirilir.*

**1.7. Elektron xidmətin icra müddəti:** *Bir tədiyyə üzrə elektron ödənişin həyata keçirilməsi prosesi real vaxt rejimində cəmi 1-2 dəqiqə ərzində başa çatır*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Xidmətin həyata keçirilməsi nəticəsində vəsait kart sahibinin bank hesabından silinərək müvafiq Xəzinədarlıq orqanında olan büdcə hesabına köçürülür. Aparılmış hər bir əməliyyat üzrə real vaxt rejimində elektron formada 30-60 saniyə ərzində Vergilər Nazirliyinə məlumat ötürülür.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnteraktiv*

**2.2. Elektron xidmət üzrə ödəniş**: *Ödənişli*

2.2.1. *Kart sahibindən aparılmış hər bir əməliyyata görə Azərbaycan Respublikasının Mərkəzi Bankının Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi (KÖMİS) ilə əməliyyatların aparılmasına dair Kollektiv Sazişlə tənzimlənən tarif əsasında avtomatik rejimdə müvafiq bank idarəsinin xeyrinə xidmət haqqı tutulur.*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergi ödəyiciləri.*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *http://www.e-taxes.gov.az/*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**
*http://www.e- taxes.gov.az/*
*195 Telefon Məlumat Mərkəzi*
*AVIS Yardım Masası*
*office@taxes.gov.az,*
*telefonlar: 403-87-28.*

**2.6 Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

*Vergi və rüsumların elektron şəkildə ödənilməsi üçün sənəd tələb olunmur. Xidmətin yerinə yetirilməsi üçün istifadəçi ödəniş kartına malik olmalıdır.*

**2.6.1. elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər dövlət orqanlarının informasiya ehtiyatında olduqda:**

*Mərkəzi Bankın KÖMİS sistemində ödəyici haqqında məlumatın, ödəyicinin qeydiyyatdan keçdiyi region üzrə Yerli Xəzinədarlıq Orqanının bank rekvizitlərinin və büdcə təsnifatının kodunun mərkəzi informasiya bazasında olması yoxlanılır və*

*büdcə səviyyəsinin, büdcə təşkilatının kodu avtomatik rejimdə müəyyənləşdirilərək ödəniş tranzaksiyasına əlavə edilir. Ödəniş kartının məlumatları və kart hesabında kifayət qədər vəsaitin olması müvafiq prosessinq mərkəzi tərəfindən yoxlanılır*

### 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1.** *Sistemdə göstərilən interaktiv xidmətlər istifadəçilər üçün daim açıqdır, sistemə müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.*

*İstifadəçi tərəfindən aparılmış hər bir ödəniş üzrə əməliyyat aparıldıqdan sonra 30-60 saniyə ərzində KÖMİS vasitəsilə Vergilər Nazirliyinə məlumat ötürülür. Gün ərzində aparılmış ödənişlərin kliring prossesi növbəti ilk əməliyyat günü həyata keçirilir*

**3.2 İnteraktiv xidmətlər üçün sorğu:**

*Vergi və rüsumların elektron ödənişi üzrə sorğu elektron imzadan və ya vergi ödəyicisinə Vergilər Nazirliyi tərəfindən Müqavilə əsasında verilmiş şifrə və paroldan istifadə edilməklə Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı üzərindən verilir.*

3.2.1. **İnteraktiv elektron xidmətlər uçun sorğunun formalaşdırılması**

*İstifadəçi tərəfindən büdcə təsnifatının kodu seçilir, ödəniləcək məbləğ və ödəniş kartının məlumatları sistemə daxil edilir*

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

*Vergi və rüsumların elektron formada ödənilməsindən ödəniş kartının məlumatları yanlış olduqda, hesabda vəsait olmadıqda imtina edilir və sistem tərəfindən bu barədə istifadəçi interfeysi vasitəsilə ödəyiciyə müvafiq xəbərdarlıq edilir.*

**3.4. Sorğunun icrası:**

*Vergi və rüsumların elektron ödənişi Vergilər Nazirliyinin "İnternet Vergi İdarəsi" portalının (https://www.e-taxes.gov.az) "Elektron ödəmə" bölməsində aparılır. İstifadəçi "Elektron ödəmə" düyməsini sıxdıqda sistem tərəfindən ekrana həmin tarixə onun büdcəyə olan borcu barədə məlumat çıxarılır. İstifadəçi təsnifat kodunu seçərək ödəyəcəyi məbləği daxil edir və "Ödə" düyməsini sıxır. Bu halda yeni KÖMİS-in mühitinə keçid alınır və yeni ekran açılır. Ödəyici ödəniş kartının nömrəsinin ilk 6 rəqəmini yığaraq "Ödəmək" düyməsini sıxır. Növbəti ekran formasında Ödəyici ekranda ödəniş kartının nömrəsinin qalan hissəsini, kartın istifadə müddətinin bitmə tarixini, kartın növünü daxil edərək "Təsdiq" düyməsini*

*sıxır. Ekrana "Ödəniş müvəffəqiyyətlə başa çatdı" xəbərdarlıq məlumatı verilir. Son mərhələdə ekrana aparılmış ödəniş üzrə Mədaxil qəbzi çıxarılır. İstifadəçi qəbzi çap edə və yaxud elektron poçt ünvanına istiqamətləndirə bilər. Ödəniş bitdikdən, KÖMİS-in infrastrukturunda proses başa çatdıqdan sonra ödəyici avtomatik rejimdə yenidən Vergilər Nazirliyinin "İnternet Vergi İdarəsi" portalına keçid alır.*

### 3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:

*Xidmətin yerinə yetirilməsinə nəzarəti Vergilər Nazirliyinin və Mərkəzi Bankın aidiyyatı qurumları həyata keçirir və bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə 195 Telefon Məlumat Mərkəzi və AVİS Yardım Masası fəaliyyət göstərir.*

### 3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

*Vergi ödəyicisi elektron ödənişin aparılmamasına görə qanunvericiliyə uyğun olaraq inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.*